**Gəmi mühafizəsi üzrə "Məsul Şəxs"**

1. GMXS (SSAS) qurğusu hansı funksiyanı yerinə yetirir?
Düzgün cavab: Gəmi-sahil istiqamətində gəminin mühafizəsinin pozulması haqqında xəbərdaretməni formalaşdırmalı və ötürməlidir

2. Gəminin mühafizə səviyyəsini kim təyin edir?
Düzgün cavab: Gəmi bayrağının Administrasiyası

3. Mühafizə haqqında deklarasiya gəmidə kim tərəfindən imzalanmalıdır?
Düzgün cavab: Kapitan və ya gəminin mühafizəyə məsul şəxsi

4. Gəminin mühafizə planını tərtib etmək üçün mühafizə sahəsində tanınmış təşkilatın ekspertinə gəmidən hansı sənəd verilməlidir?
Düzgün cavab: Gəminin mühafizə planını

5. Dövlət hakimiyyəti orqanının nümayəndəsini gəmiyə buraxmazdan əvvəl lazımdır:

1. Şəxsiyyəti təsdiqləyən sənədin təqdim olunmasını tələb etmək;
2. Əmin olmaq ki, hakimiyyət nümayəndəsi forma üzrə geyinmişdir;
3. Təqdim edilmiş şəxsiyyəti təsdiqləyən sənəddən məlumatları yazmaq, qonaq kartını vermək;
4. Əl çantasını təhvil verməyi tələb etmək;
5. Gələn şəxsin fotoşəkilini çəkmək.

Düzgün cavab: 1, 3

6. Zəruriyyət yarandıqda gəminin mühafizəyə məsul şəxsi gəminin bilavasitə yaxınlığında olan yanalma körpüsündə məhdudlaşdırılmış giriş zonası təyin edə bilərmi?
Düzgün cavab: Xeyr

7. Gəmi təlimləri keçirilməlidir:
Düzgün cavab: Heyətin 25%-dən çoxu eyni vaxtda əvəzləndiyi zaman, son üç ay ərzində bu təlimlərdə iştirak etməyənlər

8. Girişə nəzarət və onun idarəetmə sisteminin funksional effektivliyi ölçülür:
Düzgün cavab: Buraxma qabiliyyəti və səhvlərin tezliyi ilə

9. Hansı hallarda gəmi liman vasitəsindən mühafizə barədə deklarasiyanın doldurulmasını tələb edə bilər?
Düzgün cavab: Gəminin mühafizə səviyyəsi liman vasitəsinin mühafizə səviyyəsindən yüksək olarkən

10. Gəminin mühafizəyə məsul şəxsi gəmi üçün təyin olunmuş mühafizə səviyyəsini dəyişə bilərmi?
Düzgün cavab: Xeyr

11. Mühafizənin yerində yoxlanılması aşağıdakıları əhatə edir:
Düzgün cavab: Gəminin fiziki mühafizəsinin, gəmi heyətinin mühafizə sisteminin, gəmiyə giriş yerlərinin yoxlanılmasını

12. Bütün heyət üzvləri mühafizə məsələləri üzrə aşağıdakı biliklərə malik olmalıdırlar:

1. İnsanlara və yükə kontakt baxış metodları üzrə;
2. Mühafizə səviyyələrinin mənası və mahiyyəti üzrə;
3. Silahın, təhlükəli maddələrin və qurğuların tanınması və aşkarlanması üzrə ;
4. Yükləmə və boşaltma əməliyyatını həyata keçirənlərə baxış metodları üzrə;
5. Gəminin sürəti və suya oturumu üzrə

Düzgün cavab: 2, 3

13. Mühafizə səviyyəsi №3 hansı müddətə təyin edilir?
Düzgün cavab: Mühafizənin pozulması ilə əlaqədar hadisə ehtimal olunan və yaxud qaçılmaz olan zaman aralığı üzrə

14. Gəminin mühafizəsi barədə beynəlxalq şəhadətnamə kim tərəfindən verilə bilər?
Düzgün cavab: Gəmi bayrağının Administrasiyası

15. Mühafizə üzrə tədbirlər görmək üçün yaxınlaşma farvateri liman vasitəsinin tərkibinə daxil edilə bilərmi?
Düzgün cavab: Bəli

16. Gəminin mühafizəsi barədə beynəlxalq şəhadətnamənin yenidən alınması üçün yoxlamanın dövrlüyü hansıdır?
Düzgün cavab: 5 ildən artıq olmayaraq

17. Gəmidə təyin edilən məhdudlaşdırılmış giriş sahələri elə təchiz edilməlidirlər ki:
Düzgün cavab: İcazəsiz daxil olmanın qarşısını alsınlar, onlara girişə və bu sahələrin daxilində fəaliyyətlərə nəzarət təmin edilsin

18. Aşkar edilmiş qeyri-leqal sərnişinlərə şəxsi baxışın keçirilməsi gəmiyə baxışın mütləq elementidirmi?
Düzgün cavab: Bəli

19. Gəminin mühafizəyə məsul şəxsi mühafizənin qiymətləndirilməsi və mühafizə planının işlənib hazırlanması üzrə işlərdə iştirak edə bilərmi?
Düzgün cavab: İştirak edə bilər

20. Gəmi gövdəsinin üzərinə gəminin tanınma nömrəsinin çəkilməsinin zəruriliyini müəyyən edən sənəd hansıdır?
Düzgün cavab: BK SOLAS-74/78, fəsil XI-1

21. Avtomobilin sahibinin və ya onun nümayəndəsinin diqqəti cəlb edilməməsi üçün yüklənəcək avtomobillərə baxış gizli olmalıdırmı?
Düzgün cavab: Xeyr

22. Gəminin mühafizəsinin qiymətləndirilməsinin gedişatında lazımdır:

1. Potensial təhdidləri və onların ehtimalını qiymətləndirmək;
2. Gəminin mühafizəsi üzrə heyətin mövcud olan fəaliyyət prosedurlarını aşkarlamaq;
3. Mühafizə rabitə sistemləri üzrə heyətin hazırlığını öyrənmək;
4. Mühafizə üzrə rabitə sistemlərini və onların tətbiq prosedurlarını dəqiqləşdirmək;
5. Heyətin yüksək fiziki hazırlığa malik olmasını araşdırmaq

Düzgün cavab: 2, 4

23. Gəminin fasiləsiz qeydiyyat jurnalı harada saxlanılmaldır?
Düzgün cavab: Gəmidə saxlanılmalı və istənilən vaxt yoxlama üçün əl çatan olmalıdır

24. Gəmi digər dövlətin bayrağı altına verilən halda Gəminin mühafizə barədə beynəlxalq şəhadətnaməsi və mühafizə planı qüvvədə qalırmı?
Düzgün cavab: Hər iki sənəd öz qüvvəsini itirir

25. Gəminin mühafizə planının yerinə yetirilməsini təmin etmək üçün mühafizə üzrə təlimlər keçirilməlidir:
Düzgün cavab: 3 ayda azı 1 dəfə

26. Hansı hallarda gəmiyə baxış keçirilməsi tövsiyə edilir:

1. Gəmi üçün təyin edilmiş mühafizə səviyyəsi dəyişdirilərkən;
2. Heyətin bir hissəsi sahildən qayıdarkən;
3. Gəmidə qeyri-leqal sərnişinlərin olma əlamətləri aşkar edilərkən;
4. Gəmi üçün təyin olunmayan təchizatı təsadüfən alarkən;
5. Gəmi dar keçidə daxil olarkən.

Düzgün cavab: 1, 3

27. Gəminin mühafizə planının başlıca məqsədi hansıdır?
Düzgün cavab: Ehtimal edilən terrorizm aktlarına cəld və effektiv reaksiya verməni təmin edən plan və prosedurlar həyata keçirmək

28. Liman vasitəsinin mühafizəyə məsul şəxsi limanda olan gəmilərin mühafizə səviyyəsini dəyişə bilərmi?
Düzgün cavab: Xeyr

29. Gəmiyə gələn şəxslərin hansı kateqoriyası narkotiklərin yayılması üçün təhlükə doğurur?
Düzgün cavab: Gəmiyə gələn şəxslərin bütün kateqoriyaları

30. Xarici dövlət hökuməti onun limanlarına daxil olmaq niyyəti olan gəmilərdən girişə icazə almaq şərti kimi, gəminin limanlara son neçə girişi haqqında məlumatları tələb edə bilər?
Düzgün cavab: Liman vasitələrinə son 5 giriş

31. Gəmiyə daxil olma icazəsi almaq üçün dövlət hakimiyyəti orqanının nümayəndəsi nə etməlidir?
Düzgün cavab: Şəxsiyyətini təsdiqləyən sənədi təqdim etməlidir

32. Gəmi mühafizə xəbərdaretmə sistemində onun iş qabiliyyətinin yoxlanılması nəzərdə tutulubmu?
Düzgün cavab: Nəzərdə tutulmayıb

33. Aşağıda göstərilənlərdən hansı baxış proseduruna aiddir?
Düzgün cavab: Baxış 2-3 nəfərdən ibarət qruplarla keçirilməlidir

34. Mühafizənin yerində yoxlanılması zamanı gəmiyə olan ehtimal təhdidlər siyahısı formalaşdırılmalıdır ifadəsi doğrudurmu?
Düzgün cavab: Bəli

35. Gəmiyə baxış keçirilən zaman şübhəli əşya aşkar edilən halda aşağıda göstərilən fəaliyyətlərdən hansılar yerinə yetirilməlidir?

1. Bu və bütün qonşu otaqların elektrik qidalanması dayandırmaq;
2. Əşyanı mümkün olan qədər gəmidən uzağa tullamaq;
3. Şübhəli əşyanın aşkarlanması barədə məruzə etmək;
4. Aşkarlanmış əşyaya toxunmamaq;
5. Havalandırma sistemini işə salmaq.

Düzgün cavab: 3, 4

36. Lövbərdə duran gəminin göyərtəsində xidmət aparan növbə çəkən heyət üzvlərinin ultra qısa dalğalı radiostansiya ilə təchiz edilmələri mütləqdirmi?
Düzgün cavab: Bəli, mütləqdir

37. Gəmi bayraq dövlətini dəyişərkən hansı müddət ərzində Gəmi tarixinin fasiləsiz qeydiyyat jurnalının nüsxələri yeni bayraq dövlətinə göndərilməlidir?
Düzgün cavab: Mümkün olan qədər tez, lakin 1 aydan gec olmayaraq

38. Gəmiyə gələrkən öz şəxsiyyətini təsdiqləməkdən və ya şəxsi baxışa məruz qalmaqdan imtina edən şəxsə qarşı aşağıda göstərilən tədbirlərdən hansı həyata keçirilməlidir?
Düzgün cavab: Bu şəxsə mütləq baxış keçirmək və mühafizəyə cavabdeh liman orqanlarına təhvil vermək

39. Lövbərdə dayanan zaman günün qaranlıq dövründə gəmi əmlakının oğurlanmasının qarşısı hansı tədbirlə alına bilər?
Düzgün cavab: Günün qaranlıq vaxtında göyərtədə növbə çəkmə xidməti təşkil etməklə

40. Gəminin mühafizəyə məsul şəxsi hansı biliklərə malik olmalıdır?

1. İnsan kütlələri ilə davranış və onları idarəetmə üsulları;
2. Mühafizə avadanlığı və sistemlərinin istismarı;
3. Heyət üzvlərini yoxlama üsulları;
4. Mühafizə avadanlığı və sistemlərinin sınaqları və dənizdə olarkən onlara texniki xidmət;
5. Gəminin daxil olduğu limanın dövlət dilini bilməlidir.

Düzgün cavab: 1, 2, 4

41. Məşğələ və təlim haqqında yazılar icazəsiz müdaxilədən qorunmalıdır ifadəsi doğrudurmu?
Düzgün cavab: Bəli

42. Gəmi əməliyyatları zamanı təhlükəsizlik və mühafizə tələbləri arasında ziddiyət yaranarkən kapitan ümumi halda hansı tələblərə üstünlük verməlidir?
Düzgün cavab: Gəminin təhlükəsizliyini saxlamaq üçün zəruri olan tələblərə

43. Limanda dayanan zaman təchizat və digər gəmilərlə qarşılıqlı əlaqəni gəmi-gəmi əlaqəsi kimi qəbul etmək olarmı?
Düzgün cavab: Bəli

44. Yük gəmisinin xaricində onun tanınma (IMO) nömrəsi harada yazılır?
Düzgün cavab: Gəminin yaxşı görünən yerində

45. Heyət üzvü gəmidə istənilən məhdudlaşdırılmış giriş sahəsinə daxil ola bilərmi?
Düzgün cavab: Xeyr, mühafizə səviyyəsindən asılı olmayaraq, əgər bu sahə ona təhkim olunmayıbsa, gəminin mühafizə rejiminin pozulması deməkdir

46. Mühafizə rejiminin pozulması haqqında yazılar saxlanılmalıdır:
Düzgün cavab: Gəmi kapitanının müəyyən etdiyi minimal dövr ərzində

47. Əlavə yoxlama hansı hallarda keçirilə bilər?
Düzgün cavab: Əgər belə əlavə yoxlama Administrasiya tərəfindən müəyyən edilibsə

48. Əgər gəminin mühafizə barədə beynəlxalq şəhadətnaməsinin müddəti bitibsə və gəmi təzələmə yoxlaması keçməyibsə, o zaman gəmi səfərini tamamlamaq üçün onun şəhadətnaməsi hansı müddətə uzadıla bilər?
Düzgün cavab: 3 aydan artıq olmayaraq

49. Gəminin mühafizəsinin qiymətləndirilməsi aşağıda göstərilən hansı tapşırıqlardan ibarət ola bilər?

1. Gəminin mühafizəsi üzrə konkret vəzifələri olan heyət üzvlərinin hazırlığı;
2. İnfrastrukturda, siyasətdə və prosedurlarda, insan amili daxil olmaqla, zəif yerlərin aşkarlanması;
3. Əsas gəmi əməliyyatlarına ehtimal təhdidlərin qiymətləndirilməsi;
4. Mühafizə üzrə mövcud olan prosedurlara, tədbir və fəaliyyətlərə yenidən baxılması;
5. Gəmidə mühafizə üzrə məşqlərin keçirilməsinin yoxlanılması.

Düzgün cavab: 2, 3, 4

50. Gəminin mühafizə planının hazırlanması və bəyənilməsi üçün bayraq Administrasiyasına təqdim edilməsi üzrə kim məsuliyyət daşıyır?
Düzgün cavab: Şirkətin mühafizəyə məsul şəxsi

51. Bayraq Administrasiyası tərəfindən gəmilərin mühafizəsi üzrə şirkətin hansı daxili sənədi bəyənilməlidir?
Düzgün cavab: Gəminin mühafizə planı

52. Gəminin mühafizəsinin qiymətləndirilməsi hansı sənədlə rəsmiləşdirilir?
Düzgün cavab: Gəminin mühafizəsinin qiymətləndirilməsi haqqında hesabat ilə

53. Gəmiyə dəniz quldurlarının basqını zamanı aşağıda qeyd edilən tədbirlərdən hansının yerinə yetirilməsi tövsiyə olunur?
Düzgün cavab: Əgər mümkün olarsa, gəminin daxilində əvvəlcədən hazırlanmış və mühafizə olunan yerdə bütün heyəti gizlətmək

54. Gəminin mühafizə planı elektron formada saxlanılarkən onun qorunması üçün hansı mühafizə tədbirləri görülməlidir?
Düzgün cavab: Məlumatın icazəsiz istifadəsinin, onun məhv edilməsinin və ya ona dəyişikliklərin edilməsinin qarşısının alınmasına yönəldilən
prosedurları həyata keçirmək

55. Gəmi tarixinin fasiləsiz qeydiyyat jurnalına 1 yanvar 2009-cu ildən hansı məlumatlar əlavə edilmişdir?

1. Mühafizə barədə beynəlxalq şəhadətnamə vermək məqsədi ilə gəmidə yoxlama keçirən tanınmış təşkilatın identifikasiya nömrəsi;
2. Mühafizə barədə beynəlxalq şəhadətnamə vermiş Administrasiyanın identifikasiya nömrəsi;

3. Qeydiyyatdan keçmiş gəmi sahibkarının identifikasiya nömrəsi;
4. Şirkətin identifikasiya nömrəsi;
5. Şirkət rəhbərinin identifikasiya nömrəsi.

Düzgün cavab: 3, 4

56. Aşağıdakılardan hansı müddəalar açıq-aydın zənn etməyə əsas verir ki, gəmi SOLAS-74-ün XI-1, XI-2 fəsillərinin və GLVM üzrə BM-nin tələblərinə cavab vermir?

1. Gəminin qüvvədə olan mühafizə haqqında beynəlxalq şəhadətnaməsinin olmaması
2. Gəmi kapitanının gəminin mühafizə planını təqdim etməkdən imtina etməsi
3. Son 3 ay ərzində gəminin mühafizəsi üzrə məşqlərin keçirilməsi haqqında yazıların olmaması
4. Gəminin keçid pilləkənində duran növbə matrosunun geyim formasının səliqəsiz olması
5. Gəminin mühafizəyə məsul şəxsinin liman dövlətinin işçi dilini bilməməyi

Düzgün cavab: 1, 3

57. Aşağıda göstərilən vəzifələrdən hansılar bayraq Administrasiyası tərəfindən mühafizə sahəsində tanınmış təşkilata həvalə edilə bilər?

1. Liman vasitəsinin mühafizə planının hazırlanması;
2. Gəminin mühafizə planının bəyənilməsi;
3. Liman vasitəsinin mühafizə planının bəyənilməsi;
4. Gəminin mühafizə planının hazırlanması;
5. Gəminin yanğından mühafizə planının hazırlanması

Düzgün cavab: 2, 3

58. Liman dövləti GLVM BM-nin tələblərinə uyğun olmayan gəmiyə hansı xüsusi tədbirləri tətbiq edə bilər?

1. Pozuntunun aradan qaldırılması tələbini;
2. Gəmiyə limana daxil olma icazəsi verilməyə bilər;
3. Gəmiyə maddi cərimə təyin edilə bilər;
4. Gəminin mühafizəyə məsul şəxsinin şəhadətnaməsini ləğv edə bilər;
5. Gəmiyə təchizatın gətirilməsinə qadağa qoya bilər.

Düzgün cavab: 1, 2

59. Liman nəzarətinin nümayəndələri gəmini yoxlayarkən aşağıdakılardan hansı amillərə diqqət yetirirlər?

1. Təyin olunmuş mühafizə səviyyəsinə uyğun olaraq gəmiyə girişə nəzarətin varlığına;
2. Limanın vəzifəli şəxslərinə şamil edilməklə, gəmiyə daxil olanların hamısına nəzarətin həyata keçirilməsinə;
3. Keçid pilləkənində duran növbə matrosunun xarici görünüşünün qənaətbəxş olmasına;
4. Gəmidə təmizlik işlərinin vaxtlı-vaxtında aparılmasına;

5. Gəmi kapitanının növbə köməkçisinin naviqasiya təhlükəsizliyinə diqqət yetirməsinə.

Düzgün cavab: 1, 2

60. Daxili yoxlamaların keçirilmə proseduru gəminin hansı sənədində mükəmməl surətdə şərh edilir?
Düzgün cavab: Gəminin mühafizə planında

61. Aşağıdakılardan hansılar açıq-aydın terrorçu tipini göstərir?

1. Zombi sindromu - ən aşağı səviyyəli icraçı terrorçulara aiddir;
2. Elm sindromu – terror qruplarının fəaliyyətini öyrənən şəxslərə aiddir;
3. Rembo sindromu - olduqca yaxşı hazırlanmış və dözümlü döyüşçülərə aiddir;
4. Kamikadze sindromu - öz düşmənləri ilə özünü məhv edən terrorçulara aiddir;
5. Hərb sindromu - döyüş meydanında vuruşaraq həlak olan döyüşçülərə aiddir.

Düzgün cavab: 1, 3, 4

62. Terror fəaliyyəti ilə məşğul olmağın əsas motivləri hansılardır?

1. Tamahkarlıq motivi;
2. Romantika motivi;
3. İdeya motivi;
4. İnsanlar üzərində başçılıq motivi;
5. Gizlənmək motivi.

Düzgün cavab: 1,3,4

63. Hansı terrorizm növləri mövcuddur?

1. Beynəlxalq terrorizm;
2. Xalq terrorizmi;
3. Regional terrorizm;
4. Daxili terrorizm;
5. Tayfa terrorizmi

Düzgün cavab: 1,4

64. Texniki aşkaretmə vasitələrində aşağıda göstərilən ayırdetmə səviyyələrindən hansılar tətbiq edilə bilər?

1. İzləmə;
2. Aşkaretmə;
3. Təsnif etmə;
4. Eyniləşdirmə (identifikasiya);
5. Yaxalama.

Düzgün cavab: 2,3,4

65. Ümumi halda geyim üzrə terrorçunu hansı əlamətlərə görə aşkar etmək olar?

1. İnsan mövsüm üzrə geyinməmişdir;
2. Geyim olduqca azad və boşdur;
3. Paltar kəskin qırmızı və digər gözqamaşdırıcı rəngdədir;
4. İnsan uzun saqqal və bığ saxlayır;
5. İnsanın şalvarı gödəkdir.

Düzgün cavab: 1,2

66. Dövlət liman nəzarətinin nümayəndələri gəmidə hansı sənədlərin varlığını yoxlayırlar?

1. Gəminin şəhadətnamələrinin;
2. İstismar sənədlərinin;
3. İxtisas sənədlərinin;
4. Şəxsiyyət vəsiqələrinin;
5. Heyətin doğum haqqında şəhadətnamələrinin.

Düzgün cavab: 1,2,3

67. Mühafizə səviyyəsi 2 hansı səviyyədir?
Düzgün cavab: Yüksəldilmiş (gücləndirilmiş) səviyyədir

68. Mühafizə barədə deklarasiyanı liman vasitəsi tərəfindən kim imzalaya bilər?
Düzgün cavab: Liman vasitəsinin mühafizəyə məsul şəxsi və ya sahildə mühafizəyə cavabdeh istənilən digər orqanın nümayəndəsi

69. Əgər gəmidə liman vasitəsinə nisbətən daha yüksək mühafizə səviyyəsi təyin edilibsə, o zaman gəmi hansı qaydada fəaliyyət göstərməlidir?
Düzgün cavab: Gəmi yubanmadan mühafizə səviyyəsi barədə liman dövlətinin səlahiyyətli orqanına və ya liman vasitəsinin mühafizəyə məsul şəxsinə məlumat verməlidir

70. Gəminin mühafizəsini GLVM BM-nin tələb etdiyi səviyyədə təşkil etmək üçün gəmi hansı sənədə malik olmalıdır?
Düzgün cavab: Bayraq Administrasiyası tərəfindən bəyənilmiş gəminin mühafizə planına

71. Gəminin mühafizə planında göstərilən hansı fəaliyyətlər barədə yazılar minimal dövr ərzində saxlanılmalıdır?

1. Hazırlıq, təlim və məşğələlər barədə;
2. Mühafizənin pozulması barədə;
3. Gəminin olma yerinin müəyyən edilməsi barədə;
4. Mühafizə səviyyəsinin dəyişdirilməsi barədə;
5. Yükün yoxlanılması barədə

Düzgün cavab: 1,2,4

72. Mühafizə səviyyəsi 1 hansı səviyyədir?
Düzgün cavab: Adi səviyyədir

73. Mühafizə səviyyəsi 3 hansı səviyyədir?
Düzgün cavab: Müstəsna (ən yüksək) səviyyədir

74. Gəminin mühafizə təhlükəsizliyi üzrə ən böyük məsuliyyəti kim daşıyır?
Düzgün cavab: Gəmi kapitanı

75. Gəminin mühafizə planı üzrə vəzifələri olan heyət üzvləri hansı biliklərə malik olmalıdırlar?
Düzgün cavab: Fövqəladə hallarda fəaliyyətlər qaydası üzrə

76. Gəminin mühafizə planı üzrə vəzifələri olan heyət üzvləri hansı biliklərə malik olmalıdırlar?
Düzgün cavab: Silahın, təhlükəli maddə və qurğuların tanınması və aşkarlanması üzrə

77. Gəminin mühafizə planı üzrə vəzifələri olan heyət üzvləri hansı biliklərə malik olmalıdırlar?
Düzgün cavab: Mühafizə qabiliyyətinə təhdid yarada biləcək şəxslərin səciyyəvi davranış əlamətləri və tipləri üzrə

78. Gəminin mühafizə planı üzrə vəzifələri olan heyət üzvləri hansı biliklərə malik olmalıdırlar?
Düzgün cavab: Basqın zamanı tətbiq edilən hiylələr üzrə

79. Gəminin mühafizə planı üzrə vəzifələri olan heyət üzvləri hansı biliklərə malik olmalıdırlar?
Düzgün cavab: Təhdidin müasir növləri və onun variantları üzrə

80. Gəminin mühafizə planı üzrə vəzifələri olan heyət üzvləri hansı biliklərə malik olmalıdırlar?
Düzgün cavab: Mühafizə qabiliyyətinə təhdid yarada biləcək şəxslərin səciyyəvi davranış əlamətləri və tipləri üzrə

81. Gəminin mühafizə planı üzrə vəzifələri olan heyət üzvləri hansı biliklərə malik olmalıdırlar?
Düzgün cavab: Mühafizə tədbirlərindən yayınmaq üçün tətbiq edilən hiylələr üzrə

82. Gəminin mühafizə planı üzrə vəzifələri olan heyət üzvləri hansı biliklərə malik olmalıdırlar?
Düzgün cavab: İnsan kütlələri ilə davranış və onları idarəetmə üsulları üzrə

83. Gəminin mühafizə planı üzrə vəzifələri olan heyət üzvləri hansı biliklərə malik olmalıdırlar?
Düzgün cavab: Mühafizəya dair rabitə üzrə

84. Gəminin mühafizə planı üzrə vəzifələri olan heyət üzvləri hansı biliklərə malik olmalıdırlar?
Düzgün cavab: Fövqəladə hallara reaksiya vermə qaydası və proqnozlaşdırılmış vəziyyətlərdə fəaliyyət planları üzrə

85. Gəminin mühafizə planı üzrə vəzifələri olan heyət üzvləri hansı biliklərə malik olmalıdırlar?
Düzgün cavab: Mühafizə avadanlığı və sistemlərinin istismarı üzrə

86. Gəminin mühafizə planı üzrə vəzifələri olan heyət üzvləri hansı biliklərə malik olmalıdırlar?
Düzgün cavab: Mühafizə sistem və avadanlığının sınaqları, kalibrlənməsi və dənizdə olarkən texniki xidməti üzrə

87. Gəminin mühafizə planı üzrə vəzifələri olan heyət üzvləri hansı biliklərə malik olmalıdırlar?
Düzgün cavab: Yoxlamalar, nəzarət etmə və şərait dair müşahidə aparma üsulları üzrə

88. Gəminin mühafizə planı üzrə vəzifələri olan heyət üzvləri hansı biliklərə malik olmalıdırlar?
Düzgün cavab: İnsanlara, şəxsi əşyalara, baqaja, yükə və gəmi ehtiyatlarına baxış metodları üzrə

89. Gəminin mühafizəyə məsul şəxsi aşağıda göstərilənlərdən hansıları bilməlidir?

1. Mühafizə ilə əlaqəli inzibati işi;
2. Yanalma körpüsündə dayanan qonşu gəminin gündəlik fəaliyyət planını;
3. Müvafiq beynəlxalq konvensiyaları, məcəllələri və tövsiyələri;
4. Şirkətin fəaliyyət sahələrini və onların məqsədlərini;
5. Bayraq Administrasiyasının strukturunu və fəaliyyət qaydasını

Düzgün cavab: 1,3

90. Gəminin mühafizəyə məsul şəxsi aşağıda göstərilənlərdən hansıları bilməlidir?

1. Müvafiq dövlət qanunvericiliyini və qaydalarını;
2. Yanalma körpüsündə dayanan qonşu gəminin gündəlik fəaliyyət planını;
3. Mühafizəyə aidiyyəti olan təşkilatların cavabdehlik sahəsini və funksiyalarını;
4. Şirkətin fəaliyyət sahələrini və onların məqsədlərini;
5. Bayraq Administrasiyasının strukturunu və fəaliyyət qaydasını.

Düzgün cavab: 1,3

91. Gəminin mühafizəyə məsul şəxsi aşağıda göstərilənlərdən hansıları bilməlidir?

1. Gəminin mühafizəsinin qiymətləndirilməsinin metodologiyasını;
2. Yanalma körpüsündə dayanan qonşu gəminin gündəlik fəaliyyət planını;
3. Gəminin mühafizəsinin şəhadətləndirilməsinin və yoxlamalarının keçirilmə metodlarını;
4. Şirkətin fəaliyyət sahələrini və onların məqsədlərini;
5. Bayraq Administrasiyasının strukturunu və fəaliyyət qaydasını.

Düzgün cavab: 1,3

92. Gəminin mühafizəyə məsul şəxsi aşağıda göstərilənlərdən hansıları bilməlidir?

1. Gəmi və liman əməliyyatlarını;
2. Yanalma körpüsündə dayanan qonşu gəminin gündəlik fəaliyyət planını;
3. Gəminin və liman vasitəsinin mühafizə tədbirlərini;
4. Şirkətin fəaliyyət sahələrini və onların məqsədlərini;
5. Bayraq Administrasiyasının strukturunu və fəaliyyət qaydasını.

Düzgün cavab: 1,3

93. Gəminin mühafizəyə məsul şəxsi aşağıda göstərilənlərdən hansıları bilməlidir?

1. Fövqəladə hallara hazırlığı;
2. Yanalma körpüsündə dayanan qonşu gəminin gündəlik fəaliyyət planını;
3. Mühafizə tədbir və prosedurlarını əhatə edən mühafizə üzrə təlim-tədris üsullarını;
4. Şirkətin fəaliyyət sahələrini və onların məqsədlərini;
5. Məxfi və mühafizə məsələlərinə aid olan məlumatlarla davranışı.

Düzgün cavab: 1,3,5

94. Gəminin mühafizəyə məsul şəxsi aşağıda göstərilənlərdən hansıları bilməlidir?

1. Mühafizəyə olan təhdidlərin müasir növ və variantlarını;
2. Yanalma körpüsündə dayanan qonşu gəminin gündəlik fəaliyyət planını;
3. Silahın, təhlükəli maddə və qurğuların tanınmasını və aşkarlanmasını;
4. Şirkətin fəaliyyət sahələrini və onların məqsədlərini;
5. Mühafizə qabiliyyətinə təhdid yarada biləcək şəxslərin səciyyəvi davranış əlamətlərinin və tiplərinin tanınmasını.

Düzgün cavab: 1,3,5

95. Gəminin mühafizəyə məsul şəxsi aşağıda göstərilənlərdən hansıları bilməlidir?

1. Mühafizənin avadanlıq və sistemlərini və onların istismar məhdudiyyətlərini;
2. Gəminin quruluşunu;
3. Kontakt baxışların və kontaktsız yoxlamaların aparılma qaydalarını;
4. Şirkətin fəaliyyət sahələrini və onların məqsədlərini;
5. Mühafizə üzrə məşğələ və təlimləri.

Düzgün cavab: 1,2,3,5

96. Gəmilərin və liman vasitələrinin mühafizəsi üzrə beynəlxalq məcəllə ilə aşağıdakı yoxlama növlərindən hansılar gəmi üçün nəzərdə tutulmuşdur?

1. İlkin;
2. Nəzarət;
3. Aralıq;
4. Təzələmə;
5. Müntəzəm.

Düzgün cavab: 1,3,4

97. Hansı yoxlama növləri keçirildikdən sonra gəmi mühafizə barədə beynəlxalq şəhadətnamə alır?

1. Aralıq;
2. Nəzarət;
3. İlkin;
4. Təzələmə;
5. Müntəzəm.

Düzgün cavab: 3,4

98. Gəminin mühafizəsi üzrə təlimlər hansı aralıqlarla keçirilməlidir?
Düzgün cavab: 12 ayda 1 dəfə

99. Mühafizə üzrə iki təlim arasındakı zaman müddəti hansı dövrü aşmamalıdır?
Düzgün cavab: 18 ayı

100. Təzələmə yoxlama növü hansı fəaliyyət növünə aiddir?
Düzgün cavab: Şəhadətləndirmə fəaliyyətinə

101. Hansı yoxlama növü ilə gəminin mühafizə haqqında beynəlxalq şəhadətnaməsinin fəaliyyət müddəti təsdiqlənir?
Düzgün cavab: Aralıq

102. Aralıq yoxlaması hansı fəaliyyət növünə aiddir?
Düzgün cavab: Təsdiqləmə fəaliyyətinə

103. Gəmidə təkbaşına gəzən kənar şəxsi (dövlət və ya hökumət orqanının nümayəndəsi, fəhlə, qonaq və s.) görən istənilən heyət üzvü nə etməlidir?

Düzgün cavab: Onu saxlamalı və kapitanın növbə köməkçisinə məruzə etməli və onun göstərişi əsasında fəaliyyət göstərməlidir

104. Gəmiyə silahlı basqın baş verərkən və heyət üzvləri girov götürülərkən onların fəaliyyət qaydasını göstərin:
Düzgün cavab: Basqınçılar tərəfindən atəş açılırsa, çalışıb atəş xəttindən yayınmaq və onların bütün tələblərinə əməl etmək

105. Aşağıda sadalananlardan hansı mühafizə üzrə məxfi məlumatlara aid edilə bilər?
Düzgün cavab: Gəminin mühafizə planı

106. Aşağıda sadalananlardan hansı mühafizə üzrə məxfi məlumatlara aid edilə bilər?
Düzgün cavab: Gəminin mühafizə xəbərdaretmə sisteminin işə salınma düymələrinin yerləşməsi və işə salınma proseduru

107. Aşağıda sadalananlardan hansı mühafizə üzrə məxfi məlumatlara aid edilə bilər?
Düzgün cavab: Gəminin mühafizəsi üzrə keçirilən məşğələlər, məşqlər və təlimlər

108. Aşağıda sadalananlardan hansı mühafizə üzrə məxfi məlumatlara aid edilə bilər?
Düzgün cavab: Mühafizə səviyyələri üzrə həyata keçirilən tədbirlər

109. Gəmidə qeyri-leqal sərnişinlərin olma əlamətləri aşkar edilərkən gəmidə hansı tədbir görülməlidir?
Düzgün cavab: Gəmiyə baxış keçirilməlidir

110. Gəminin mühafizə səviyyəsi dəyişdirilərkən gəmidə hansı tədbir görülməlidir?
Düzgün cavab: Gəmiyə baxış keçirilməlidir

111. Gəminin mühafizəsini şərh edən beynəlxalq sənəd necə adlanır?
Düzgün cavab: Gəmilərin və liman vasitələrinin mühafizəsi üzrə Beynəlxalq Məcəllə

112. Gəmidə mühafizə məsələlərini həll etmək üçün təyin olunmuş şəxs necə adlanır?
Düzgün cavab: Gəminin mühafizəyə məsul şəxsi

113. Şirkətdə mühafizə məsələlərini həll etmək üçün təyin olunmuş şəxs necə adlanır?
Düzgün cavab: Şirkətin mühafizəyə məsul şəxsi

114. Müşahidə aparan texniki mühafizə avadanlığına aşağıda göstərilənlərdən hansı aid edilə bilər?
Düzgün cavab: Videokameralar və monitorlar

115. Müşahidə aparan texniki mühafizə avadanlığına aşağıda göstərilənlərdən hansı aid edilə bilər?
Düzgün cavab: Otaqlara icazəsiz daxil olma barədə kapitan körpüsünə (gəmidə müəyyən
edilmiş digər yerə) siqnal ötürən vericilər

116. Gəmiyə girişə nəzarət edən növbə çəkən heyət üzvü gəminin hansı jurnalında qeydlər aparmalıdır?
Düzgün cavab: Gəmiyə gələnlər jurnalında